# İstedad olmadan böyük nailiyyət qazanmaq çətindir...



21717 | 2018-04-05 16:13

Şriftin ölçüsü:

***Söz İlahi işarədir. Sözün gücü var. Bir də söz sahibləri var. O söz sahibləri ki, sözün dəyərini bilir, onun üzərində zərgər dəqiqliyi ilə işləyir. Belə söz adamlarını tanımaq, onlarla ünsiyyət qurmaq bizim "söz" haqqında anlayışımıza yeni bir məna gətirir. "Söz adamı" layihəsinin növbəti qonağı fəlsəfə doktoru, pedaqoq Mail Yaqubdur.***

- ***"Söz adam"larının cəmiyyətə təsir imkanlarını necə qiymətləndirirsiniz?***

Bu gün vətənimizdə söz , fikir adamları arasında cəmiyyəti, insanları qınamaq dəbdir. Bir çoxu insanların onların yaradıcılığına etinasızlığından gilayə edir. Mənsə belə düşünmürəm. Söz adamları, ziyalılar, maarifçilər bazarda malını

satmağa çıxaran tacirlərə bənzəyirlər. İnsanlar isə müştəridir. Tacir müştərilərin nazını çəkməlidir, onların zövqünü oxşamağa çalışmalıdır. Maarifçi də həmçinin. Burda bir incə məqam var: Ziyalı, söz adamı nə satır? Söz, fikir, düşüncə, ədəb-əxlaq. Demək maarifçi gündəlik tələb olunan konkret əşyalar satmır. O, maşın satmır, ev satmır, çörək satmır. Cəmiyyət ilk növbədə gündəlik işlənən zəruri ehtiyacları haqda düşünür, onları qazanmağa çalışır. Demək, maarifçinin işi çətindir. Axi, o tam fərqli cinsdən olan bir şey satır. Bu baxımdan onun məsuliyyəti, öhdəçiliyi çoxdur. Düçüncə adamı ilk olaraq insanlara təqdim etdiyi elmin-ziyanın onların həyatında zəruri olmasını onlara aşılamalıdır, özü də səbrlə, təmkinlə. Ümumiyyətlə söz adamının işi əzabdır, əziyyətdir. O, həyata xoşbəxt olmaq üçün deyil, xoşbəxt etmək üçün gəlib. 19-cu əsrin məşhur ingilis filosofu Con Stuart Mill deyir: "Dahi-maarifçi insanın xoşbəxt olmaq üçün şərtləri çoxdur, həm də ağırdır..” Bu gün cəmiyyətimizdə yaxşı təsir imkanlarına malik olan söz adamları tanıyıram. Onlar tanınırlar, sevilirlər.

- ***2009-cu ildə "Din fəlsəfəsi” kitabınız işıq üzü gördü. Bu sahədə son zamanlar hansı tədqiqat işləri aparılır?***

Din fəlsəfəsi 19-cu əsrdə Avropada yaranmış sahədir. Sonralar daha çox anqlosakson ölkələrində yayıldı. Bu sahə olduqca aktualdır. Çünki din bütün dövrlərdə aktual fenomen kimi diqqət mərkəzindədir. Din nədir? Dinin Əxlaqla, Hüquqla əlaqələri necədir? Din elmə ziddir? Yoxsa elmə təşviq edir? Tanrı varmı? Vardırsa onu rasional dəlillərlə sübut etmək olarmı? Tanrı vardırsa o ədalətlidirmi? Ədalətlidirsə bəs bu qədər çatışmazlıqları, cinayətləri niyə aradan qaldırmır? Tanrıya inanmaq insan həyatına faydaldırmı? Belədirsə konkret hansı faydalardan danışmaq olar? Yoxsa Tanrıya inanmaq zərərlidir? Ruh varmı? Yoxsa insanın varlığı təkcə maddi-cismanıdir? Ölümdən sonra həyat varmı? Bütün bu suallar Din fəlsəfəsinə aiddir. Müasir dövrdə qlobal olaraq din faktı daha çox gündəmə gəldi. Səbəb? Çünki dini inanc bütün dünyanı zəbt etməyə can atan "fövqəlbəşər”in əlində əlverişli bir alətə çevrildi. Həmin "superman” anladı ki, din manipulyasiya üçün münasib variantdır. Din adı ilə terror qruplaşmaları yaratdı. Ən dəhşətli cinayətləri din adı ilə bütün bəşəriyyətə təqdim olundu.

Beləliklə yenidən din məsələsi aktuallıq qazandı. Məncə nə qədər bəşər tarixi davam edir, din həmişə aktual olacaq. Din, asanlıqla inkar olunası gerçək deyil.

- ***Din fəlsəfəsi elminin yeni çöhrə almasının əsas səbəbi məhz onun insanmehvərliyidir. Bu fikrə münasibətiniz necədir?***

**R**azıyam. Konkret olaraq İslamda İnsan əziz bir varlıqdır. Quranda gözəl bir ayə var: " Biz adəm övladını şərəfli və hörmətli etdik" (İsra, 70)

Təbii ki, hər bir ifadənin-sözün dəqiq izahını vermək gərəkdir. Bunun üçün həmin ifadənin kontekstini müəyyənləşdirmək lazımdır. İnsanməhvərlik nədir? Bu, hansı kontekstdə işlənir? Qərb, yoxsa Şərq? Şərqdə müsəlman şərqi, yoxsa qeyri-müsəlman şərqi? Baxın, əvvəlcə bunun açıqlaması zərurudir. Qərbdə 17-ci əsrdən bu yana İnsan sükan arxasına keçdi. Buna antroposentrizm deyildi. Yəni Hüquqda və Siyasətdə Tanrının qanunları deyil, insanın düşüncələri önə çəkildi. Burada insanməhvərlik, yəni antroposentrizm orta əsrlər katolik kilsəsinin hakimiyyətdə olduqu Avropadakı teosentrizmin, yəni Tanri mərkəzçiliyin əksi idi. Demək, bu tarixi dövrü nəzərə alsaq insanməhvərlik dinə ziddir. Amma konret İslamın mətninə müraciət etsək məncə mənzərə tam fərqlidir. İslamda insan dəyərli, əziz, sevimli bir varlıq kimi qələmə verilir. Quranda, Bəqərə surəsinin 30-cu ayəsində möhtəşəm bir təbir var. Tanrı insanı yaradarkən deyir:

"Mən yer üzündə xəlifə yaratmaq istəyirəm." Təbirə baxın, insan Tanrının canişinidir. Bundan böyük dəyər ola bilərmi? Sual. Belədirsə bəs nə üçün müsəlman ölkələrində insan hüquqları tapdalanır? Cavab. Birinci. Ali bir qanunun mövcudluqu onun icra olunmasına zəmanət vermir. İcra edilməyən həmin ali qanun evdə toz basan və dəyərsizləşən qiymətli cəvahirat kimidir. İkinci. Hansı əsasla ümumi mühakimə edirik? Bir çox müsəlman ölkələrində, rifah səviyyəsi, insan hüquqlarının göstəriciləri məqbuldur. Üçüncü. İnsan hüquqlarının meyarı nədir? Ola bilməzmi Avropada danilmaz insan haqqı kimi tanınan bir iş müsəlman dünyasında məqbul sayılmasın? Məsələn, bu gün qərbdə, əxlaq fəlsəfəsində ən çox müzakirə olunan məsələlərdən biri homoseksualizmdir. Bəzi ölkələrdə eyni cinslərin nikahına rəsmi icazə verilib. İslamda bu qadağandır. Sual. Bu qadağa insan hüquqlarına ziddirmi? Sualın özü mühümdür. Demək istədiyim budur ki, hazırda inkişafda olan bəzi müsəlman ölkələrində müaəyyən

dini qadağalar olsa da bu həmin ölkələrdə insan hüquqlarının tapdalanması kimi qiymətləndirilmir. Düzdür, belə bir baxış da var ki, bütün dinləri və bütün kontekstləri eyni tərəziyə qoyub dini tamamilı qeyri-insani bir qaydalar toplusu kimi təqdim edirlər. Lakin bu cür radikal yanaşmaq qəbuledilməzdir. Ümumiyyətlə radikallıq fəsadlara yol açır.

- ***Hadi Sadiqi "Yeni kəlama müqəddimə" əsərində din fəlsəfəsi məfhumunun izahında deyir: "Din fəlsəfəsi, dinlərdə olan ümumi və müştərək məsələləri əqli baxımdan təhlil edir". Dinlərdə ümumi və müştərək məsələlər dedikdə nələr nəzərdə tutulur?***

Dinlərə müxtəlif aspektlərdən fərqli təsnifatlar verə bilərik. Ümumi olaraq səmavi və qeyri səmavi dinlər var. Səmavi dinlərə İslam, Xristianlıq və İudaizm aid edilir. Yuxarıda qeyd etdiyim sualları və məsələləri bü üç dinin ortaq məsələləri adlandıra bilərik. Tanrı, ruh, əxlaq-din, əxlaq-hüquq, ölümdən sonrakə həyat və sair. Qeyi səmavi dinlərdə isə məsələlərin məcrası fərqlidir. Ümumi olaraq dinlərin bir çoxunda əsas və fundamental məsələ Tanrı və ölümdən sonrakı həyat problemidir.

- ***Müasir Amerika filosofu Devid Rey Qriffin isə din fəlsəfəsini ilahiyyat adlandırır və onun əhatəli olduğunu bildirir. O, "Postmodern dünyada Tanrı və din" kitabında yazır: "Mən ilahiyyat dedikdə müqəddəs saydığımız hər bir varlıq barədə əqli baxışlar məcmusunu nəzərdə tuturam. Başqa sözlə, son qayəsi elə özü olan həqiqət barədə fəlsəfi düşünələr "ilahiyyat" adlanır". İlahiyyat və fəlsəfə arasında olan bağlılıq nədir?***

Fəlsəfənin mövzusu varlıqdır, insandır. Fəlsəfə ən geniş maştapda həyat, varlıq, insan, Tanrı haqda düşünür. İlahiyyatın mövzusu isə Tanrı və Tanrı ilə əlaqəli məsələlərdir. Filosof Tanrıya inana da bilər, inanmaya da. Yeri gəlmişkən bəzi milli ateistlərimizin nəzərinə çatdırım ki, fəlsəfə başdan başa inkarçılıq-nihilizm deyil. Qərbdə Tanrıya inanan kifayət qədər tanınmış filosoflar var. Hətta Bertrand Russel kimi tanınmış filosof aqnostikdir. Yəni tam olaraq Tanrını inkar etmir.

- ***Ümumiyyətlə müasir dövrdə fəlsəfənin insana verdiyi biliklər nə dərəcədə aktualdır?***

**B**axır fəlsəfənin tərifini necə veririk. Müasir dünyada fəlsəfə və filosof bir çox sahələrə baş vurur və həmin sahələrdə daha dəqiq və fundamental biliklər ortaya qoyur. Axi, fəlsəfə həm də baxış tərzidir, baxış növüdür. Fəlsəfə dəqiq baxış tərzidir, daha dərin, daha fundamental. Bu sahələr hansılardır? Tarix, Hüquq, Siyasət, Əxlaq (Etika), Din, Sosiologiya, Psixologiya, Ədəbiyyat, Nəzəri İqtisadıyyat, Antropologiya. Bütün bu sahələrdə filosofun araşdırmaları daha effektiv və səmərəli olur. Ümumiyyətlə məncə bütün humanitar, hətta texniki sahələrdə təhsil alan insanlar fəlsəfi baxışa sahib olmalıdırlar. Nədir fəlsəfi baxış? Qlobal-kosmopolit baxış. Dar çərçivədən çıxıb dünyaya daha açıq gözlə baxmaq. Mən təəssüfllə deməliyəm ki, vətənizmdə bəzi elm adamları hələ də bu dar çərçivədən çıxa bilmirlər. Məsələn, çox saylı kitablar müəllifi olan bir yazıçı tanıyıram, deyirdi: "Filan bölgədən olan insan sona qədər yaxşı insan ola bilməz.” Sizcə fəlsəfi baxışı olan insan belə cılız düşünə bilərdimi? Əsla.

- ***Fəlsəfədə insanın yeri və rolu nələrdən ibarətdi?***

Olduqca geniş sualdır. Mənim bir mühazirəm var bu mövzuda: Fəlsəfə və insan. Məsələn, 19-cu əsrin məşhur filosofu Nitsşe insanı tükənməz istəyə malik olan bir varlıq kimi dəyərləndirir. O, yəni insan dayanmadan içindəki bu istəyi təmin etmək üçün çalışmalıdır. Sonda insan fövqəlbəşər zirvəsinə ucalmalıdır. Ümumiyyətlə modern dövrün fəlsəfəsində insan Tanrının yerini tutmaqa cəhd edir. Ekzistensializm fəlsəfəsində insan yazıq, bədbəxt varlıq kimi qələmə verilir. Hətta onun intihar etməyinə bəraət qazandırılır. Orta əsrlər sxolastik fəlsəfədə insan Tanrıdan asılıdır.

- ***Bir qədər də ədəbiyyat haqqında düşüncələriniz bilmək maraqlı olardı. Müasir dövr Azərbaycan ədəbiyyatından kimləri oxuyursunuz?***

Ramiz Rövşən, Vaqif Səmədoğlu, Vaqif Bayatlı Odər, Əlibala Hacızadə, Anar, Salam Sarvan, Səlim Babullaoğlu. Vahid Qazinin " Çamayra , Kuba dəftəri” əsəri gözəldir. Gənc şair-yazarlardan İlqar Kamilin şeirlərini sevirəm. İlqarın " Anam üçün” romanını bəyənirəm. Azər Elşadoğlunun esseleri çox dərəylidir. Keçən il " Qalaqurma” adlı kitabı çap oldu. Gənc şair Elşən Mehdinin də şeirlərini bəyənirəm.

- ***Ədəbiyyatda qruplaşmalara münasibətiniz?***

Qruplaşma fəsadlara aparırsa pisdir, sağlam qərabət yaradırsa yaxşıdır. Amma ümumilikdə mən ədəbiyyata ciddi məkan kimi baxıram. Mənimçün ədəbiyyat romantikadır, ədəb-əxlaqdır, fəlsəfədir, mədəniyyətdir, həyatdır, ciddi söz meydanıdır. Belə bir sahənin mənfi mənada qruplaşmalara bölünməsi ədəbiyyatın ruhuna, məğzinə, fəlsəfəsinə ziddir.

- ***İstedad və zəhmət. Bu iki anlayışın yaradıcı insanda faiz nisbətini necə görürsünüz?***

Höte bu nisbəti belə görürdü: 1 faiz isedad, 99 faiz zəhmət. Bəlkə də buna görə belə kəskin mövqe bildirirdi ki, zəhmət çəkə-çəkə insanın istedadı da artır. Çünki istedad olmadan böyük nailiyyət qazanmaq çətindir. Mən 50 faiz istedad, 50 faiz zəhmət deyərdim.

- ***Kitab təbliğatı işində bir sıra işlər görülməkdədi. Mütaliə vərdişini formalaşdırmaq üçün hər hansı bir mexanizm varmı?***

Əvvəla onu deyim ki, hazırda bizdə kitab təbliğatı işi ürək açan deyil. 2 ildən bir 3 günlük kitab sərgisi keçirməklə kitab təbliğatı aparmaq olmaz. Konkret Tv verlişləri olmalıdır. Kitab həyatdır. Kitab hər şeydir. Kitab bizi özümüzə tanıdan vasitədir. Kitab tərbiyədir, mədəniyyətdir, əxlaqdır. Kitab oxumaq vərdişini formalaşdırmaq üçün kitabla dostluq yaratmaq lazımdır. Kitab oxumaq asan iş deyil. Xüsusilə indi, informasiyaların bol olan vaxtında kitab oxumaq çox çətindir. Amma bu vərdişi yaratmaq olar? Necə? Qısa, lakin səlis və məzmunlu yazılan əsərləri oxumaqla. Bəzən 100 səhifəlik bir əsər bizə Min səhifəlik mətləb verir. Bir də çoxlu kitab oxumaq da hünər deyil. Baxır nə oxuyuruq və necə mənimsəyirik onu.

- ***Ədəbi mükafatlar münasibətiniz...***

Çox gözəl ənənədir. Mən kitabın, mütaliənin çoxalmasını təbliğ edən bütün işləri yüksək qiymətləndirirəm. Hətta şöhrət naminə ədəbi mükafatlar təsis edənləri də təqdir edirəm. Təki kitab təbliğ olunsun.

- ***Dünya ədəbiyyatından oxumağa vacib bildiyiniz əsərlər...***

Hüqo- Səfillər. Tolstoy-Hərb və Sülh, Anna Karenina. Dostoyevski- Cinayət və Cəza, Karamazov qardaşları. Bulqakov- Master və Marqarita. Drayzer- Amerika Faciəsi. Kafka- Məhkəmə. Kamyu- Yad.

Şərqdən: Nizami Gəncəvi-Xəmsə. Mövlana Rumu-Məsnəvi, Hafiz-Divan.

- ***Keçmiş yoxsa gələcək?***

Daha çox gələcəyi düşünürəm. Keçmişi düşünəndə sıxılıram.

- ***Son olaraq "söz" haqqında sözünüz...***

Söz mənimçün ciddi bir varlıqdır. Ona ehtiramla yanaşıram. Nazını çəkirəm, tozunu alıram (Yenə təp-təzə qaldı söz, Mən sözün tozunu aldım. R.Rövşən) Sözə təhqir, istehza donu biçmək ona həqarətdir, hörmətsizlikdir. Məncə söz yalnız dünyanın gözəlliklərini təsvir etmək üçün yaradılıb.

**Söhbətləşdi: Tural Cəfərli**